PARADIGMA, No.1, 2026, səh.36-44
https://doi.org/10.30546/30015.2026.01.01.2032

# ALİ MƏKTƏBDƏ MÜƏLLİMİN PEŞƏ FƏALİYYƏTİNİN SOSİAL-PSİXOLOJİ XÜSUSİYYƏTLƏRİ

**F.R. Mürşüdova**
Azərbaycan Universiteti, Ceyhun Hacıbəyli, 71, Bakı, Azərbaycan
e-mail: firuzemursudova@gmail.com

**Xülasə**. Məqalədə ali məktəb müəlliminin peşə fəaliyyətində tələb olunan sosial-psixoloji keyfiyyətlərin təhlilini göstərmişik. Ali məktəb müəlliminin işinin psixoloji və sosial aspektləri tələbələrə psixoloji dəstək (şəxsi inkişaf, problem həlli), sosial rolları (dəyərlərin formalaşması, sosial həyata hazırlıq), şəxslərarası qarşılıqlı əlaqələri (empatiya, taktika, obyektivlik) və özünüinkişafı (davamlı öyrənmə və dəyişən tələblərə uyğunlaşma) əhatə edir. Bu hərtərəfli fəaliyyət təkcə bilik ötürülməsini deyil, həm də təhsili, sosial bacarıqların inkişafını və gələcək mütəxəssislərin şəxsi inkişafına dəstək verməyi əhatə edir. Ali məktəb müəllim-tələbə münasibətlərilə bağlı çoxsaylı tədqiqatlar aparılsa da, təəssüf ki, ali təhsil müəssisələrində bu mövzuya çox az diqqət yetirilmişdir. Müəllimin hansı keyfiyyətlərə malik olması tələbələrə necə təsir etmək, onların ixtisaslı, keyfiyyətli insan, vətəndaş kimi yetişməsinə töhfə verməkdə mühüm əhəmiyyət kəsb edir.

**Açar sözlər:** təhsil, tədris, proses, müəllim, tələbə, imtahan, sevgi, hörmət, peşə, inkişaf, ali məktəb, sosial, psixoloji

## Giriş

Müasir psixoloji tədqiqatlarda ali təhsildə müəllimlərin işi nadir hallarda onun iki əsas komponenti – tədqiqat və tədris kontekstində araşdırılır. Tədqiqatlar bir və ya digərinin xüsusiyyətlərinə diqqət yetirir. Birincisində, elmi düşüncə və idrakın xüsusiyyətlərinə, elmi ünsiyyət və yaradıcılığın xüsusiyyətlərinə, alimin şəxsiyyətinə və müasir alimlərin işlərinin sosial-psixoloji təhlilinə vurğu edilir. İkincisində, tədris əsasən ümumi təhsil sistemi daxilində nəzərdən keçirilir. Ali təhsil müəllimlərinin peşəkar işinin fərdi komponentlərinin psixoloji tədqiqatları da onu vahid bir sistem kimi nəzərdən keçirməyə imkan vermir. Bu, tədqiqat və tədrisdə peşəkar inkişafın fundamental qanunauyğunluqlarının və spesifik xüsusiyyətlərinin öyrənilməsini çətinləşdirir və sistemli psixoloji təhlilə ehtiyac olduğunu vurğulayır [3;4;6].

Biz ali təhsil müəllimlərini elmi və pedaqoji fəaliyyətin subyektləri hesab edirik və onların spesifik xüsusiyyətləri mövzu və fəaliyyət səviyyələrində təhlil yolu ilə aşkar edilir. Fənn səviyyəsində peşəkar fəaliyyətin təhlili elmi və pedaqoji fəaliyyətdə subyektiv şəxsiyyət xüsusiyyətlərinin psixoloji strukturunu, peşəkar özünüdərk və peşəkar-şəxsi özünüdərk anlayışının inkişafı üçün şəraiti və peşədə onların motivasiyasının spesifikliyini araşdırmağı hədəfləyir. Fəaliyyət səviyyəsində təhlil aşağıdakıları əhatə edir: ali təhsil müəllimliyi peşəsinin şəxsi və sosial əhəmiyyətini müəyyən etmək; peşəkar mühiti onun ayrı-ayrı komponentlərində və bütövlükdə araşdırmaq, fəaliyyətin obyektini, subyektini, psixoloji məzmununu və onun

daxilindəki peşəkar kompetensiyaları müəyyən etmək; və elmi və pedaqoji fəaliyyətin təşkilinin funksional səviyyəsini müəyyən etmək [6, s. 45-46].

Ali təhsil müəllimlərinin peşəkar fəaliyyətinin daxili motivasiyalarının məzmuna görə sistemləşdirilməsi aşağıdakıları müəyyən etməyə imkan verir: aktiv özünütəhsil; özünüinkişaf, özünütəkmilləşdirmə və özünüdərk etmək istəyi; fərdi və daha geniş mədəni və təhsil kontekstində işində məna axtarışı; yaradıcılıq istəyi; fənlərə idrak marağı; tələbələrlə işləməkdən və yaradıcı komandada qarşılıqlı əlaqədən məmnunluq. Xarici motivasiyalar arasında tədqiqatlar xüsusilə sosial-psixoloji motivasiyaları vurğulayır: peşənin nüfuzu, akademik dərəcələr və titullar; elmi işlə məşğul olmaq imkanı və işin xarici amillərdən müstəqilliyi; çevik iş qrafikləri; fərdi məqsədlərin sosial mühitdə baş verən əsas proseslər və tendensiyalarla uyğunlaşdırılması; peşəkar uğura prioritet dəyər kimi və həmkarlar tərəfindən tanınmağa sosial cəhətdən müəyyən edilmiş diqqət, bu da müsbət özünəhörməti qorumaq üçün idrak strategiyası kimi xidmət edir; və elmi ictimaiyyətə öz peşəkar qrupu kimi diqqət.

Erasmusun (1467-1556) dediyi kimi, “Təkbaşına bitən ağaclar, meyvəsi olmasa da və ya pis meyvə versələr də yenə də ağacdırlar; atlar bir işə yaramasalar belə dünyaya at olaraq gəlirlər, amma insanlar, inanın mənə, insan olaraq doğulmazlar; onlar yalnız təhsil və tərbiyə ilə insan halına gəlirlər” sözləri ilə ifadə edilməyə çalışıldığı kimi, təhsil və tərbiyə insanın insan olmasında və insan həyatının məna qazanmasında mühüm yerə malikdir [1, s.39-40]. Təhsil və təlim arasında sərhədləri müəyyən etmək mümkün deyil. Məhəmməd peyğəmbərin (s.ə.s.) “Beşikdən qəbrə kimi elm öyrənin” hədisində bildirdiyi kimi, insan doğulduğu andan etibarən təhsilin qucağında olur. Təhsil həyatın hər sahəsində davam edir, evdə, işdə, məktəbdə və s insanlar həmişə təhsillə məşğul olurlar, insan daim təhsillə iç-içədir. Təhsil və təlimin özəyini təşkil edən iki əvəzedilməz element var: biri müəllim, digəri isə öyrənən, şagird və ya tələbədir.

**İdeal müəllim modeli**

Müəllim hər şeydən əvvəl geyiminə, baxımına, saçına, saqqalına, bığına, bir sözlə, zahiri görünüşünə, geyiminə fikir verməlidir. Müəllim heyəti geyim və baxım baxımından nümunəvi insan olmalıdır. Müəllim heyəti öz sahəsində yaxşı hazırlığa malik olmalı, davamlı olaraq araşdırma apararaq, tədqiqat yolu ilə yeni biliklər əldə etməklə öz sahəsində mütəxəssisə çevrilməlidir. Sahəsinə hakim olan bir müəllim, mövzu ilə bağlı istənilən məsələni tələbələrinin anlaya biləcəyi səviyyəyə endirib aydın və başa düşülən dildə izah etdikdə, həm mövzunun daha yaxşı qavranılmasını təmin edəcək, həm də tələbələr üzərində müsbət təsir yaradacaqdır. Belə bir hal həm müəllimin tələbələr üzərində müsbət təsirinin formalaşmasına, həm də tələbələrin müəllimə olan etimadının artmasına səbəb olacaqdır.

Bir müəllim, izah etdiyi mövzunu ən incə detallarına qədər analiz edərək, yəni təhlil metodu ilə əvvəlcədən müəyyən edilmiş variantların təsiri altında qalmadan sərbəst şəkildə anlatmalıdır. Uzun cümlələrdən istifadə etmək əvəzinə, qısa, aydın cümlələrlə istifadə edilməlidir, mövzunun kifayət qədər aydın izah edilməsi, tələbələrə ara-sıra sual vermək və cavab almaqla dərslərin keçirilməsi tələbələrin mövzunu başa düşməsinə böyük köməklik göstərəcək. Dərs zamanı müəllim tələbələrə suallar ünvanladığı kimi, mövzu ilə bağlı tələbələrin də müəllimə sual verməsinə imkan yaratmalıdır. Bu üsul təkcə tələbələrin mövzunu başa düşməsini asanlaşdırmayacaq, həm də tələbələrin dərsdə fəal iştirakına təkan verəcək. Bu, tələbələrin özünə inamını və müəlliminə inamını artıracaq. Analiz metodu ilə aparılan dərslər tələbələrin şərh etmə və təhliletmə bacarıqlarının inkişafına müsbət töhfə verəcək. Müəllim bilik, təcrübə və mədəniyyət baxımından özünü yaxşı yetişdirməklə kifayətlənməməli, həm də çalışdığı təhsil müəssisəsi tərəfindən bütün ehtiyacları qarşılanmalıdır yəni dərs otağı, kitabxana və müxtəlif texniki vasitələrlə təmin olunmalıdır. Müəllim bütün diqqətini öz sahəsi, tədris etdiyi fənni üzrə problemlərə və onların həlli yollarını axtarmağa yönəltməlidir. Düşünürəm ki, bu, təhsil və təlim prosesində nəzərə alınmalı ən vacib aspektlərdən biridir [2;5;8].

Universitet təhsilinin digər mühüm cəhəti də müəllimlə tələbə arasında sevgi və hörmətə əsaslanan münasibətin qurulmasıdır. Müəllim tələbəni, tələbə isə müəllimin özünü böyük dəyər kimi qəbul etməlidir, yəni hər iki tərəf arasında qarşılıqlı tolerantlıq olmalıdır, başqa sözlə, hər iki tərəf öz əsl mahiyyətini bilməli və sərhədlərini aşmamağa çalışmalıdır. Qısaca desək, qəzəbli, qaşqabaqlı, əsəbi, tələbələrlə nifrətlə rəftar edən müəllim öz sahəsini yaxşı bilən olsa belə, yaxşı müəllim ola bilməz. Bu tip müəllim tələbələrinin dərsə soyuq yanaşmasına səbəb ola bilər. Ona görə də təvazökar və hörmətə əsaslanan müəllimlə tələbələri arasında isti bir mühit yaranacaq və belə münasibət müəllim-tələbə arasında qarşılıqlı etimadı gücləndirəcək [8].

İnsan həyatının hər anı öyrənmə ilə bağlı olduğu üçün müəllim bəzən öyrənən, öyrənən isə bəzən öyrədici vəziyyətində ola bilər. Çünki öyrədici vəziyyətində olanlar bəzən öyrənən vəziyyətində olanlardan bəzi şeylər öyrənə bilərlər. Lakin müəllim bəzən bundan xəbərsiz ola bilər. Öyrədici vəziyyətində olan şəxs isə bunun fərqində olduğu üçün, öyrənənlə arasında ara-sıra belə situasiyaların baş verə biləcəyini unutmamalıdır. Çünki müəllim-tələbə münasibətlərində belə hallar təlim prosesinin yaradıcı və faydalı olmasına kömək edir. Tələbəni nəzərə almayan, ona lazımi dəyəri verməyən müəllimin təlim prosesinə faydasından çox zərər verəcəyi də aydındır. Tələbəsi ilə əvvəldən tolerant münasibət qura bilməyən müəllimin tələbəni dərsdən soyutmasının təlim üçün faydalı olacağını demək nə qədər düzgün ola bilər? Ona görə də universitet müəlliminin tələbəsi ilə xoş münasibət qura bilməsi hər iki tərəfin sevgi,

hörmət və qayğıya əsaslanan münasibət qurmasından asılıdır. Müəllimlərin tələbələri ilə müsbət münasibətlər qurma dərəcəsi onların universitetə nə qədər bağlı hiss etmələrinə, nə qədər xoşbəxt olduqlarına və nə qədər uğurlu olmalarına əhəmiyyətli dərəcədə təsir göstərir [2, s.636-646].

Müəllim həmkarları ilə də yaxşı münasibət qurmalıdır. Onların davranışlarında, hərəkətlərində, salamlaşmalarında, həmkarlarının davranışlarında yaxından iştirak etmələri də vacibdir. Onlar istiqanlı, təvazökar, bir-birinə hər cür kömək etmək bacarığı ilə seçilməlidirlər. Problemlərini həm tələbələri, həm də həmkarları ilə bölüşməyi bilməlidirlər. Ona görə də ideal müəllim həm həmkarları, həm də tələbələri ilə sevgiyə və hörmətə əsaslanan sağlam pedaqoji əlaqələr qura bilən şəxsdir.

**Müəllim-tələbə münasibətləri və etik davranış**

Müəllim sinifdəki hər bir tələbəni yaxından tanımalı, onlarla maraqlanmalı, dərsdə iştirakını təmin etməli, həm sözü, həm də hərəkəti ilə dərsdə iştirakını və uğurunu artıracaq şəkildə hərəkət etməlidir. Müəllim dərslərində qərəzsiz olmalı, tələbələrin fikrinə hörmət etməli, yanlış fikir irəli sürdükdə tələbələri istehzalı ifadələrlə təhqir etməkdən çəkinməlidir. Əksinə, şagirdlərə mövzunun müxtəlif şərhlərinin olduğunu söyləməklə, özlərinə inamlarını artırmağa kömək etməlidirlər. Müəllim tələbələri arasında qısqanclıq və rəqabət mühiti yarada biləcək davranışlardan çəkinərək, dərslərində tələbələri ilə bərabər davranmalıdır. Başqa sözlə, bir tələbəni digərindən üstün tutmamalı, onları fərqli mövqeyə qoymalı və onlara üstünlük verməməlidirlər. Onlar güzəştli rəftardan qaçmalı və ədalət hissini bütün tələbələr arasında bərabər şəkildə yaymağı bacarmalıdırlar. Belə vəziyyət tələbələrin müəllimlərinin ədalətli fəaliyyət göstərdiyinə inamını gücləndirəcək və beləliklə, onlar öz müəlliminə inamla baxacaqlar. Müəllim tələbələrinə mehriban davranışla, dost kimi yanaşmalı, tələbəyə hər cür kömək etməlidirlər. Onlar tələbələrinin problemləri ilə dərindən maraqlanmalı, həll yollarını təqdim etməli, onların ictimai fəaliyyətlərində iştirak etməli və onlara töhfə verməli, təkcə dərs zamanı deyil, həm də dərsdən kənarda onlarla isti münasibət saxlamalıdırlar. Lazım olduqda müəllimi, lazım olduqda qardaşı, bacısı, lazım olduqda ata və ya anası, bir sözlə, dost olmalıdırlar. Tələbəyə adı ilə müraciət etməkdən gözəl nə ola bilər? Adı ilə müraciət olunan tələbə müəlliminin onlara qayğı göstərdiyini dərindən hiss edir, müəllimi dost kimi görür və bu hiss tələbəyə dərin hisslər aşılayır. Müəllim tələbəni heç vaxt aşağılamamalıdır. Onları aşağılaya biləcək söz və ya hərəkətlərdən çəkinməlidirlər. Onlar dözümlü olmalı, tələbələrə onlarla danışarkən özlərini rahat hiss etmələrinə imkan verməli və bununla da onlara suallar verməl期 asanlaşdırmalıdırlar. Onlar həmçinin onlara verilən suallara mümkün olan ən dəqiq cavabları verməyə çalışmalıdırlar. Sahələrinə aid olan suala düzgün cavabı bilmirlərsə, rədd

cavabı verməkdən çəkinməlidirlər. Bu vəziyyətlə qarşılaşan bir müəllim üçün ən yaxşı addım, cavab isə “Mən hələ bu barədə düşünməmişəm” və ya “Gəlin bu sualın cavabını birlikdə tapmağa çalışaq” deməkdir [5;8].

Müəllim bütün cəhətləri ilə tələbələr tərəfindən nümunə göstəriləcək bir şəxs olmalı, əxlaq prinsiplərini rəhbər tutan, dürüst, etibarlı, sosial baxımdan yaxşı inkişaf etmiş, mülayim, mərhəmətli, səmimi, təvazökar, təmiz və zərif geyinən, geyiminə böyük diqqət yetirən bir şəxs olmalıdır. Bu keyfiyyətləri özündə cəmləşdirən müəllim hər cəhətdən nikbin, təzyiq və zorakılıqdan uzaq, güclü xasiyyətli, tələbələri özündən uzaqlaşdırmayan, etibarlı olur. Müəllim təkəbbürlü və qürurlu olmamalıdı, özlərini böyük hesab etməməlidirlər. Dərslərində effektiv olmaq üçün müəllim ciddi, intizamlı olmalı, özləri ilə tələbələri arasında ahəngdar, mənalı məsafə saxlamalı və dərsdən kənarda tələbələri ilə maraqlanmalıdır. Müəllim ədalət tərəzisindən kənara çıxmamalıdırlar. Tələbələrinin imtahanlarını qiymətləndirərkən onların verdiyi cavabları çox diqqətlə oxumalı və tələbələr keçməyə yaxın qiymət alıblarsa onlara kömək etməlidir. İmtahandan keçməyə layiq olan tələbənin haqqına lazımi diqqət göstərilməlidir, xüsusilə də imtahandan kəsilməyə layiq olmayan tələbəyə qəsdən kəsiləcəyi qiyməti verməkdən çəkinilməlidir. Burada vurğulamaq istədiyim odur ki, heç bir tələbə müəllim tərəfindən qiymətlə təhdid edilməməlidir. Bundan əlavə, mühazirələr və ya dərs zamanı müəllimlər “Siz nə etsəniz də mənim dərsimdən keçə bilməzsiniz”, “İmtahanlarda mən sizə göstərəcəyəm”kimi ifadələrdən istifadə etməməlidir. Bu cür ifadələr tələbələrlə müəllim arasında qəbuledilməz bir mühit yarada bilər və hətta tələbələrin dərsdən soyumasına, uzaqlaşmasına səbəb ola bilər. Belə bir vəziyyət tələbələrin müəllimə olan etimadını sarsıda, dərslərinə hazırlaşmamalarına və nəticədə dərsdən uğursuz olmalarına, aşağı nəticə almalarına səbəb ola bilər. Tələbələrin bacarıqlarına inam göstərmək tələbələrin özünə inamını gücləndirir [1;3;5].

Hamre və Piantanın 2001-ci ildə apardıqları tədqiqatın nəticələrinə görə, tələbələr öz müəllimlərinin onların rifahını və akademik uğurlarını düşündüklərini hiss etdikdə, dərslərə fəal şəkildə qatılmağa, tapşırıqları vaxtında yerinə yetirməyə və akademik mükəmməllik uğrunda çalışmağa daha çox meylli olurlar [10].

Məqalədə ali məktəb müəllimlərinin peşə fəaliyyətinin sosial-psixoloji xüsusiyyətləri empirik tədqiqat nəticələri əsasında araşdırılmışdır. Tədqiqat müəllimlərin empatiya səviyyəsi, emosional sabitliyi, kommunikativ bacarıqları və müəllim-tələbə münasibətlərində ünsiyyət üslubunun öyrənilməsinə yönəlmişdir. Əldə etdiyimiz nəticələr müəllimin peşə fəaliyyətində sosial-psixoloji amillərin təlim-tərbiyə prosesinin effektivliyinə mühüm təsir göstərdiyini sübut edir.

Apardığımız tədqiqatın məqsədi ali məktəb müəllimlərinin peşə fəaliyyətinin sosial-psixoloji xüsusiyyətlərini empirik metodlar vasitəsilə müəyyənləşdirməkdən ibarətdir. Tədqiqatda 60 ali məktəb müəllimi iştirak etmişdir və empirik məlumatların toplanması üçün aşağıdakı metodlardan istifadə etmişik.:

- empatiya səviyyəsinin ölçülməsi üçün psixodiaqnostik testlər;
- emosional sabitliyin müəyyənləşdirilməsi üçün anket sorğusu;
- kommunikativ bacarıqların qiymətləndirilməsi üçün özünüqiymətləndirmə formaları;
- müəllim-tələbə münasibətlərinin təhlili üçün müşahidə metodu.

Əldə etdiyimiz nəticələr faiz göstəriciləri əsasında təhlil olunmuşdur.

**Tədqiqatın nəticələri**

Apardığımız tədqiqat nəticələri göstərmişdir ki, müəllimlərin 65%-ində empatiya səviyyəsi yüksək, 25%-ində orta, 10%-ində isə aşağı səviyyədədir. Kommunikativ bacarıqların yüksək səviyyədə formalaşması müəllimlərin 62%-də müşahidə olunmuşdur. Emosional sabitlik göstəriciləri müəllimlərin yarısında yüksək səviyyədə görülmüşdür.

Müəllim-tələbə münasibətlərinin təhlili nəticəsində müəyyən edilmişdir ki, ali məktəb müəllimlərinin 60%-i demokratik ünsiyyət üslubuna üstünlük verir və bu tələbələrlə qarşılıqlı hörmətə əsaslanan münasibətlərin formalaşmasına müsbət təsir göstərir.

Əldə olunan empirik nəticələr müəllimin peşə fəaliyyətində sosial-psixoloji xüsusiyyətlərin həlledici rol oynadığını göstərir. Yüksək empatiya və kommunikativ bacarıqlar ali məktəb müəlliminin pedaqoji təsir imkanlarını genişləndirir, emosional sabitlik isə təlim prosesində psixoloji tarazlığın qorunmasına şərait yaradır. Nəticələr mövcud psixoloji-pedaqoji tədqiqatlarla və Rojersin nəzəriyyəsi ilə uyğunluq təşkil edərək müəllimin şəxsiyyətyönümlü fəaliyyət modelini təsdiqləyir.

Tədqiqatlardan bizə məlum olur ki, müəllimin uğuru onun tətbiq etdiyi ünsiyyət modelindən və  üslubundan asılıdır. Belə ki, empirik araşdırmalara görə, demokratik üsluba malik müəllimlərin sinfində tələbələrin daxili motivasiyası 30-40% daha yüksək olur və bu üslubda qurulan müəllim-tələbə münasibətlərinin tərbiyəvi təsiri daha güclü olur.

Tədqiqatlar bizə sübut edir ki, müəllim və tələbə arasındakı “psixoloji məsafə” həddindən artıq olduqda, informasiya mənimsənilməsi kəskin aşağı düşür. Doyle-un sinif ekoloji yanaşmasına görə müəyyən “peşəkar məsafə” dərsin axınını və müəllimin səlahiyyətini qoruyur, artıq məsafə isə emosional dəstəyi zəiflədir [7].

Empirik tədqiqatlarda müəyyən edilmişdir ki, yüksək emosional intellektə (EQ)malik olan müəllimlər konfliktli situasiyaları 60% daha effektiv idarə edirlər. Bundan əlavə, empirik sorğu növü olan Maslach Burnout Inventory göstərir ki, stajı 15 ildən çox olan müəllimlərin təxminən 45-50%-i emosional yanma (burnout) riski ilə üzləşir və bu da dərsin keyfiyyətinə birbaşa təsir göstərən sosial-psixoloji amildir.

**Nəticə**

Müəllimlərin tələbələri ilə bağlı əsas məqsədi, tələbələrə təhsil həyatlarının başlanğıcında xatırlatmaqdır ki, onların yeganə məqsədi yalnız bölümü bitirib iş tapmaq deyil, tələbələr, eyni zamanda, bitirdikləri sahədə universitetdə qalıb magistratura və ya doktorantura təhsili almağı da düşünməli, qarşılarına hədəf qoymalıdırlar. Müəllimlər dərsin mövzusundan kənara çıxmamalı, siyasi baxışlarını, ideologiyalarını və ya dini inanclarını dərsə daxil etməməli, dərsi izah edərkən obyektivlik prinsipinə əməl etməlidir. Müəllim situasiyalara tələbələrinin nöqteyi-nəzərindən yanaşmalı, özünü onların yerinə qoymalıdır. Tələbələrinin hansı şəraitdə təhsil almasını nəzərə almalı, onlara lazımi imkanlar yaratmalıdırlar. Bu müəllim ilə onların tələbələri arasında isti münasibət yaradacaq və bu əlaqələr onların uğurlarına müsbət töhfə verəcək.

Beləliklə, ali təhsil müəllimlərinin elmi və pedaqoji fəaliyyətin subyektləri kimi peşəkar inkişafındakı ümumi tendensiya, peşəkar “Mən” konsepsiyasının və onların daxili və xarici motivasiya sisteminin əsasını təşkil edən idrak, tənzimləyici və sosial-davranış alt strukturlarının mürəkkəbliyində kəmiyyət və keyfiyyətcə artıma doğru yönəlmişdir. Bundan əlavə, tədqiqat bizə elmi və pedaqoji fəaliyyətin strukturunda şəxsi, peşəkar qrup və sosial-mədəni səviyyələri müəyyən etməyə, onları subyektiv komponentlərlə əlaqələndirməyə və bunlara əsaslanaraq ali təhsil müəllimlərinin peşəkar səriştələrini və onların peşəkar fəaliyyətinin funksional səviyyədə təşkilini mahiyyətcə təsvir etməyə imkan vermişdir.

Müəllim həmişə özünü tənqid etməyi bacarmalı və tənqidə açıq olmalıdır. Müəllim dərsini izah edərkən, tələbələri tərəfindən mövzu ilə bağlı verilən fikirlərdə bir çatışmazlıq və ya düzgün hesab edilməyən bir məqam aşkar olunarsa və ona etiraz edilsə, bu etirazı sakit şəkildə dinləməli, əgər etiraza cavab verə biləcəksə uyğun dildə cavab verməli, yoxdursa etiraz edən tələbəyə “haqlısınız” və ya “gəlin bu məsələyə birlikdə düşünək” deyərək lazımi diqqəti göstərməlidir. Unutmaq olmaz ki, tənqid insanlara həqiqətə çatmaqda ən böyük köməkçidir. Təbii ki, tənqid dağıdıcı və incidici deyil, konstruktiv və bərpaedici olmalıdır. Müəllim sinifdə dərs deyərkən tələbələrin yanında öz həmkarı haqqında mənfi fikir söyləməməlidir. Müəllim şəxsi həyatında baş verən mənfi hadisələri sinifdə tələbələrinə yansıtmamalıdır. Müəllim dərslərinə vaxtında başlamalı və vaxtında bitirməlidir, bu, müəllimin mövzuya əhəmiyyət verdiyini və tələbələrinə dəyər verdiyini göstərirdiyi kimi, tələbələrdə müəllimə qarşı lazımi hörmət, sevgi və etimad hissi formalaşdırır.

**Ədəbiyyat siyahısı**

1. Leif J., Rustin G., (1980) Pedagoji Doktrinleri Açısından Genel Pedagoji, çev: Nejat Yüzbaşıoğulları, Milli Eğitim Basımevi, İstanbul, 234 s.
2. Aultman, L.P., Williams-Johnson, M.R., & Schutz, P. A. (2009) Boundary Dilemmas in teacher–student relationships: Struggling with “the line.” Teaching and Teacher Education, 25 (5), 636-646 p.
3. Aydın F., (2019) Ali təhsil müəssisələrində müəllim-tələbə münasibətlərinin rolu. Bakı: Təhsil Nəşriyyatı, 361 s.
4. Məmmədova L. (2021) Ali təhsil müəssisələrində qarşılıqlı hörmət və münasibətlərin təhsilin keyfiyyətinə təsiri, Bakı: Elm və Təhsil Nəşriyyatı. 273 s.
5. Rüstəmov. F., Dadaşova, T., (2007) Ali məktəb pedaqogikası. Magistratura pilləsi üçün dərslik, Bakı, “Nurlan” nəşriyyatı, 568 s.
6. Hüseynov E.A. (2025), Karyera planlama və özünü inkişaf etdirmə psixologiyası, Bakı,. ADPU-nun nəşr., 174 s.
7. Hamre, B. K., & Pianta, R. C. (2005). Can instructional and emotional support… Child Development, 76(5), 949–967.
8. Дубицкий В.В (2004). О мотивации деятельности преподавателей вузов // Социс, № 1, с. 119–124.
9. Самерханова Э (2006). Принцип организации единого образовательного пространства в вузе // Alma mater (Вестн. Высш. Школы). № 4. С. 54–56.
10. Hamre, B. K., & Pianta, R. C. (2001). Early teacher–child relationships and the trajectory of Children’s school outcomes. Developmental Psychology, 37(3), 586–597

## SOCIAL-PSYCHOLOGICAL FEATURES OF THE TEACHER’S PROFESSIONAL ACTIVITY IN HIGHER SCHOOL

**F.R. Murshudova**

Azerbaijan University, Ceyhun Hajibeyli, 71, Baku, Azerbaijan

**Abstract.** In the article, we have shown an analysis of the socio-psychological qualities required in the professional activity of a higher school teacher. The psychological and social aspects of the work of a higher school teacher include psychological support for students (personal development, problem solving), social roles (formation of values, preparation for

social life), interpersonal interactions (empathy, tactics, objectivity) and self-development (continuous learning and adaptation to changing requirements). This comprehensive activity covers not only the transfer of knowledge, but also education, the development of social skills and support for the personal development of future specialists. Although numerous studies have been conducted on the relationship between teachers and students in higher education, unfortunately, very little attention has been paid to this topic in higher education institutions. The qualities of a teacher are of great importance in influencing students and contributing to their development as qualified, high-quality people and citizens.

**Keywords**: Education, teaching, process, teacher, student, exam, love, respect, profession, development, higher education, social, psychological.